*Azərbaycan Milli Elmlər Akademiyası*
*Национальная Академия Наук Азербайджана*
*Azerbaijan National Academy of Science*

*Elm Tarixi İnstitutu Институт Истории Науки*
*İnstitute of History of Science*

*Elm Tarixi və Elmşünaslıq*
*History of Science and Science of Science*
*История науки и Науковедение*

# “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda II Beynəlxalq elmi konfransın MATERİALLARI

# МАТЕРИАЛЫ Второй международной научной конференции «История науки и науковедение: междисциплинарные исследования»

# MATERIALS On the 2nd International scientific conference on the “History of science and science of science: interdisciplinary studies”

***ISSN Print: 2788 - 9831***
***ISSN Online: 2788 – 984X***
***ISSN-L: 2788-9831***

**15 oktyabr 2021 / 15 октября 2021 / 15 october 2021**

**Bakı / Баку / Baku**

# SƏNƏTŞÜNAS ZİYADXAN ƏLİYEVİN 2019-CU İLDƏ ÇAP OLUNMUŞ MƏQALƏLƏRİNİN TƏHLİLİ

***EMİL AĞAYEV***
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kolleci "İncəsənət və fiziki tərbiyə" fənn birləşmə komissiyasının müəllimi Sənətşünaslıq üzrə magistr**

**Giriş.** Azərbaycan elminin inkişafı və dünyada tanınması alimlərimizin əsas vəzifələrindən hesab olunur. Hər bir tədqiqatçının müəllifi olduğu elmi əsərlər təkcə onun yaradıcılığı üçün deyil, gələcək nəsillər üçün də bir sərvətdir. Azərbaycan təsviri sənət və sənətşünaslığının hərtərəfli araşdırılmasında mühüm yeri olan əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyevin adını xüsusilə vurğulamalıyıq. Sənətşünas-alimin yaradıcılığının hər bir mərhələsi həmin dövr üçün aktualdır.

**Mövzunun işlənmə dərəcəsi.** Sənətşünas-alimin yaradıcılığında xalçaçılıq haqqında tədqiqat işləri mühüm yer tutur. "Nadir xalça" məqaləsində Cəfər Mücirinin unikallığı ilə seçilən "Saib Təbrizi" xalçası haqqında mühüm məlumatlar əldə edirik. Azərbaycan xalçaçılığında ilk dəfə yunun öz xüsusi təbii rənglərinin müxtəlif çalarlarından məharətlə istifadə edərək gözəl sənət əsəri yaradıldığını sənətşünas diqqətə çatdırır. Xalçanın kompozisiya quruluşu haqqında qeydlərə nəzər yetirən alim, klassik "ləçək-turunc" qaydasında, Təbriz xalçaçılıq qrupu ənənələrinə uyğun işlənildiyini əsaslandırır. [7, s 7]

Ziyadxan Əliyevin məqalələrində görkəmli tarixi şəxsiyyətlərin ikinoqrafik obrazlarının təhlili də mühüm yer tutur. Elmi sübutlarla, arxivlərə müraciət edən alim yeni, maraqlı fikirləri ilə oxucuların diqqətini çəkir. "Əqidəyə "güzgü" tutan portret" məqaləsində Sadıq Şərifzadənin müəllifi olduğu "Nəsimi" portretinin uğurlu təhlili, sənətşünaslığımız üçün yeni bir tapıntıdır.

"Qarabağ müharibəsi təsviri sənətdə" məqaləsində sənətşünas tanınmış rəssamlar- Vaqif Ucatay, Asif Azərelli, Xanlar Əhmədov kimi digər sənətkarların əsərlərinə müraciət etmiş, xalqımızın başına gətirilən faciələr, rəssamlarımız tərəfindən işlənilən əsərlər təhlil edilmişdir. "Qarabağnamə-tarixin səhifələri" məqaləsində Qarabağ və onu başqaları üçün gözdağına çevirən səbəblər barəsində kifayət qədər material toplamış xalq rəssamı Arif Hüseynovun silsiləsi təqdim edilmişdir. "I Pyotrun məktubu", "Türkmənçay müqaviləsi", "Gəncəsər monastırı", "Alban abidələrinin erməniləşdirilməsi", "Daşnakların "Böyük Ermənistan" xülyası", "Güllələnmiş heykəllər", "Qarabağ müharibələri", "Pənahəli xan", "Xalq musiqiçiləri", "Kəlbəcər qadınları", "Qarabağ atları" və s. tarixi əsərlər rəssam tərəfindən uğurla işlənilmişdir. Professor Ziyadxan Əliyev bu silsiləni "Qarabağ şikəstəsi" və XX əsrin əvvəllərində Bəhruz bəy Kəngərlinin "Qaçqınlar" silsilə ilə müqayisə etmişdir. [ 6, s 7]

"Bəhruz bəy Kəngərlinin davamçıları", "Tahir Salahovun çap olunmayan əsərləri", "Qədim Azərbaycan sarayları", "Ənənəyə bağlı sənətkar: Xalq rəssamı Sirus Mirzəzadənin yubiley portreti", "Qədim sənətimizin gəncliyi:xalçaçı-rəssam Eldar Hacıyevin yaradıcılıq axtarışları haqqında", "Qərənfilləri "ağladan" gecənin tərənnümü" məqalələri sənətşünaslığımız üçün dəyərli əsərlərdir.

Sənətşünas-alimin "Sərdar sarayında Mirzə Qədim izi" məqaləsində bir sıra tarixi fikirlərə də rast gəlirik. Gürcüstandan gətirilən əsərlər əməkdar rəssam Natiq Səfərovun rəhbərliyi altında bərpa ediləndən sonra, 2019-cu ilin may ayında Heydər Əliyev mərkəzində "Tarixin şah əsərləri" adı altında ictimaiyyətə təqdim olunmuşdur. Ziyadxan Əliyev məqalədə Qacar üslubunun özünəməxsus xüsusiyyətlərini də təhlil obyektinə çevirmişdir.

“Naxçıvan tarixi rənglərin işığında” məqaləsində Ziyadxan Əliyev Qafqazşünas kimi də tanınan İvan Şeblıkin əsasən 1934-1941-ci illər arasında Akvarellə çəkilmiş Naxçıvan lövhələrinə diqqəti çəkir. “Qədim Naxçıvan”, “Naxçıvan”, “Pir Eyvaz”, “Qazançı kəndi”, “Ordubadda küçə” kimi Şeblıkin müəllifi olduğu qrafika əsərləri atribusiya metodu ilə müəyyənləşdirilmişdir. [8, s 7]

Professorun müəllifi olduğu “Azərbaycan toyunda tərənnüm olunan milli adətlərimiz” məqaləsində Fərman Hüseynovun Şəmkir rayon tarix-diyarşünaslıq muzeyinin interyerində yerləşən divar rəsmi təhlil edilmişdir. Xususilə Azərbaycan xalqının həyatının ayrılmaz hissəsi olan toy məclisinə həsr olunan divar rəsmində, bütünlükdə milli mədəniyyətin və etnoqrafiyanın ayrı-ayrı sahələrini miniatür rəssamlığı, xalçaçılıq, şəbəkə, misgərlik, ağacoyma , dulusçuluq sənətlərini,musiqi rəqs mədəniyyətini, geyim, mətbəx zənginliyini əhatə etdiyini sənətşünas alim xüsusilə vurğulayır.

Sənətşünasın yaradıcılığına diqqət yetirsək, xalq rəssamı Cəmil Müfidzadə haqqında müxtəlif illərdə yazılan məqalələr görə bilərik. Qrafikaçı rəssamın yaradıcılığını təhlil edən Ziyadxan Əliyev onun əsərlərini işləmə manerasına, kompozisiya biçiminə görə orijinal adlandırmışdır. Rəssamın dəst-xəttinin tədricən dəyişdiyi, yeni bədii keyfiyyətlərlə zənginləşdiyini, həmişə cəlbedici görünən və yeniləşən bu ifadə tərzini əvvəllər nə qədər lakonik forma-biçim, təzadlı işıq-kölgə həlli səciyyələndirirdisə, vaxt axarında onlar tədricən çox zərif, ovsunlayıcı naxışları andıran cizgilərlə əvəz olunduğunu müxtəlif əsərlərin təhlili ilə oxuculara təqdim edir. Rəssamın yaradıcılığının sonrakı illərini sənətşünas məqaləsində bədii forma bütövlüyü, axıcı xətlərin dinamikliyi, fakturanı cəzbedici və duyulan edən qarışıq texnikanın tətbiqi nəticədə özünəməxsus bədii şərh kimi səciyyələndirərək, bədii-texniki ifadə vasitəsinə çevrildiyini vurğulamışdır. Ziyadxan Əliyev məqaləsində görkəmli sənətkarı “Qrafika sənətimizin ağsaqqalı” adlandırmışdır [10, s 7].

Ziyadxan Əliyev daima istedadlı gəncləri dəstəkləmişdir. Gənc rəssam Bəhruz Kəngərlinin yaradıcılığını təhlil edən sənətşünas məqaləni “Bəy oğlunun izi ilə” vurğulamışdır. Bədiiləşdirdiyi görüntülərdə onun rəngkarlıq estetikasının özünəməxsus görkəmə malik olduğunu sənətşünas əsaslandırmışdır. Gənc rəssamın kətandan boylanan bədii şərhlərində kifayət qədər qabarıqlığı, daima axtarışda olan müəllifin göstərmək istədiklərini söyləmək arzusunda olduğu həqiqətləri bir qədər naturalistik aydınlıqdan uzaq kimi oxuculara təqdim edilmişdir.

Bədurə Əfqanlı yaradıcılığını təhlil edən sənətşünas geyimlərinin tarixi əhəmiyyətini və rəng çalarlılığını vurğulayır. Xalq rəssamı müxtəlif bölgələrin geyimlərinin müəllifi kimi, müasir dövrdə də aktualdır. Ziyadxan Əliyev sənətkarı “Geyim rəssamlığımızın əfsanəsi” adlandırmışdır.

“İlk ali savadlı azərbaycanlı neftçı-geoloqun portreti” məqaləsində sənətşünas-alim 1949-cu ildə kəşf olunmuş dəniz yataqlarında “qara qızıl”ı milli sərvətə çevirməyi bacaran Azərbaycan neftçilərinin, xüsusilə də onların arasında kişilərlə bərabər çalışan qadınların əməyini ön plana çıxararaq, 1954-cü ildə Moskvadakı V.İ.Surikov adına Rəssamlıq İnstitutunu bitirib Bakıya qayıdan gənc rəssam Vəcihə Səmədovanı xüsusilə ilhamlandırmış əsəri təhlil edilmişdir. Geoloq MinirəMəmmədbəyli portretinin sakit, bir az da donuq duruşuna duyulası dinamikalığını sənətşünaslıq kontekstində oxuculara təqdim etmişdir.

“Qrafik improvizələr ustası:Arif Ələsgərovun yubiley portreti”, “Realizm estetikasının gücü:Əməkdar rəssam Rafael Abasovun bədii axtarışları haqqında”, “Xəzrinin təzadlı rəng çalarları:Sumqayıt rəssamlarının yaradıcılıq hesabatı haqqında”, “Şəki xan sarayı rəsmlərinin estetikası haqqında”, “Ənənə ilə müasirlik qovuşanda:gənc batika ustası Əfşan Əsədovanın yaradıcılıq axtarışları”, “Zər qədrini zərgər bilər:Bədii metal ustası Şahin Əlipənahovun

yaradıcılıq axtarışları haqqında" məqalələrində sənətşünas öz fərdi yaradıcılıq üslubunu bir daha təqdim etmişdir.

***Nəticə***

"Sənətşünas Ziyadxan Əliyevin 2019-cu ildə çap olunmuş məqalələrinin təhlili" mövzusu müasir Azərbaycan elmi və incəsənəti üçün aktualdır. Elmi məqalənin əsas nəticələri aşağıdakılardır:

-Sənətşünas Ziyadxan Əliyev yaradıcılığının 2019-cu il mərhələsi tədqiqatın obyekti seçilmişdir

-Sənətşünas-alimin 2019-cu ildə qəzet və jurnallarda çap olunmuş məqalələri təhlil edilmişdir.

-Hər bir məqalənin tədqiqatlarımızda oynadığı rol təqdim edilmişdir.

-Ziyadxan Əliyevin yaradıcılığında mühüm yer tutan atribusiya

Azərbaycan sənətşünaslığının inkişafında Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyevin yaradıcılığının hər bir mərhələsi xüsusilə yer tutur.

## *ƏDƏBİYYAT*

1. Ağayev E. "Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu:problem və perspektivlər"//"Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda V Respublika elmi-praktik konfransının materialları,Turizm və menecment universiteti,s 103-104,Bakı 22 noyabr 2019

2. Ağayev E. "Müasir Azərbaycan sənətşünaslığının inkişafında Ziyadxan Əliyevin rolu"// Elmi əsərlər jurnalı №28,S 212-215,İSSN 2221-7576,ADMİU 2020

3. Ağayev E. "Series of articles "history of a work" by Ziyadkhan Alıyev"//III international european conference on interdisciplinary scientific researches// Moldova Comrat State University january 15-16 2021//p 236-241

4..Ağayev E. "Promotion of Azerbaijani art in Ziyadkhan Aliyev research" //"Problems of arts and culture" international scientific journal//Azerbaijan National academy of sciences institute of architecture and art// 2021 №1 (75), p 27-32

5.Əliyev Z. "Qarabağ müharibəsi təsviri sənətdə" //Kaspi qəzeti// 2019, 23-25 fevral// s 24

6. Əliyev Z. "Qarabağnamə- tarixin səhifələri" //Mədəniyyət qəzeti// 2019, 13 mart// s 7

7.Əliyev Z. "Nadir xalça" Mədəniyyət qəzeti //2019, 26 aprel//s 7

8.Əliyev Z. "Naxçıvan tarixi rənglərin işığında"Mədəniyyət qəzeti //2019, 30 oktyabr//s 7

9.Əliyev Z. "Azərbaycan toyunda tərənnüm olunan milli adətlərimiz"//Mədəniyyət qəzeti// 2019, 27 fevral //s 7

10.Əliyev Z "Qrafika sənətimizin ağsaqqalı"// Mədəniyyət qəzeti //2019, 12 aprel// s 7